SİYASİ elmlər

UOT 32:316.77; 32:070; 32.049.5; 32:316.65
DOI: https://doi.org/10.30546/25194011.2026.201.2.4.5001

# ƏHALİNİN TƏBİİ VƏ MEXANİKİ HƏRƏKƏTİNİN BEYNƏLXALQ HÜQUQİ ƏSASLARI

**ÜLVİYYƏ TURAB QIZI HAQVERDİ**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikası, Bakı ş., Səbail r., AZ 1001, Lermontov küç. 74*
*E-mail: ulviyyahaqverdi@gmail.com*
*https://orcid.org/0000-0002-2690-0053*

## XÜLASƏ

Tədqiqatda əhalinin təbii və mexaniki hərəkətinin beynəlxalq hüquqi əsasları sistemli şəkildə təhlil olunur. Tədqiqat miqrasiya hüququnun müxtəlif sahələrinin qarşılıqlı əlaqəsini və bu sahələr arasındakı struktur parçalanmanı araşdırır. Xüsusilə 1951-ci il Qaçqınların statusu haqqında Konvensiya və 1967-ci il Protokolu çərçivəsində formalaşmış hüquqi mexanizmlər, həmçinin 1990-cı il miqrant işçilər haqqında Konvensiyanın tətbiq problemləri müqayisəli şəkildə qiymətləndirilir. Məqalədə həmçinin 2018-ci il Qlobal Miqrasiya Paktı kimi "yumşaq hüquq" sənədlərinin artan rolu və onların məhdudiyyətləri təhlil edilir. Demoqrafik siyasət kontekstində isə reproduktiv hüquqların beynəlxalq hüquq sistemində formalaşması, xüsusilə 1994-cü il Qahirə Konfransının təsiri araşdırılır. Məcburi antinatalist və pronatalist siyasətin insan hüquqları baxımından nəticələri ayrıca qiymətləndirilir. Tədqiqat göstərir ki, beynəlxalq hüquq müəyyən normativ çərçivə təqdim etsə də, bu çərçivənin icrası dövlət suverenliyi və siyasi maraqlar səbəbindən məhdud qalır. Eyni zamanda müasir demoqrafik çağırışlara uyğun yeni hüquqi mexanizmlərin çatışmazlığı müşahidə olunur.

**Açar sözlər:** *miqrasiya hüququ, reproduktiv hüquqlar, qaçqın hüququ, demoqrafik siyasət, beynəlxalq hüquq.*

## Giriş

Əhalinin təbii və mexaniki hərəkətinin beynəlxalq hüquqi əsaslarının təhlili müasir dövrdə qlobal miqrasiya axınlarının həm kəmiyyət, həm də keyfiyyət baxımından intensivləşməsi, əhalinin yaş strukturu, doğum və ölüm göstəriciləri üzrə sürətli və çoxşaxəli demoqrafik transformasiyaların baş verməsi, habelə dövlətlərin sərhədlərə nəzarət etmək və əhalini idarə etmək hüququ ilə beynəlxalq insan hüquqları rejiminin universal və məcburedici xarakter daşıyan prinsipləri arasında getdikcə daha da dərinləşən struktur ziddiyyətlərin formalaşması kontekstində xüsusi aktuallıq qazanır, çünki bu proseslər yalnız ayrı-ayrı dövlətlərin daxili siyasətinə təsir göstərməklə kifayətlənmir, eyni zamanda beynəlxalq hüququn normativ arxitekturasını yenidən düşünməyi zəruri edir, mövcud hüquqi mexanizmlərin adekvatlığını sual altına alır və miqrasiya, qaçqınların qorunması, əmək miqrasiyası, reproduktiv hüquqlar və demoqrafik siyasət kimi sahələrdə həm normativ boşluqların, həm də tətbiq uyğunsuzluqlarının daha aydın şəkildə üzə çıxmasına səbəb olur, nəticə etibarilə beynəlxalq hüququn bu mürəkkəb və çoxsəviyyəli prosesləri tənzimləmə qabiliyyətinin elmi və praktik müstəvidə sistemli şəkildə təhlil edilməsini zəruri edən fundamental bir tədqiqat istiqaməti kimi çıxış edir.

Bu baxımdan, məqalənin əsas məqsədi əhalinin hərəkətinin və demoqrafik siyasətin beynəlxalq hüquqi tənzimlənməsinin normativ əsaslarını sistemli şəkildə təhlil etməkdir. Tədqiqatda normativ-hüquqi analiz və müqayisəli yanaşma metodlarından istifadə edilmişdir. Bununla yanaşı, beynəlxalq müqavilələr, konvensiyalar və "yumşaq hüquq" sənədlərinin məzmunu sistemli təhlil edilərək konseptual ümumiləşdirmə aparılmışdır.

## Miqrasiya sahəsində beynəlxalq hüquq

Milli miqrasiya qanunvericiliyinin və praktikasının hüquqi əsasını təşkil edən beynəlxalq hüquq sahələrinə beynəlxalq insan hüquqları hüququ, beynəlxalq əmək hüququ və standartları, beynəlxalq qaçqın hüququ, beynəlxalq cinayət hüququ, beynəlxalq humanitar hüquq, konsulluq hüququ və dəniz hüququ daxildir. Bu normativ çərçivənin müxtəlif hüquq rejimləri arasında parçalanması, yəni hər birinin öz institusional qoruyucularına, icra mexanizmlərinə və tətbiq sahəsinə malik olması müharibədən sonrakı dövrdə miqrasiya idarəçiliyinin əsas problemlərindən biri kimi boşluqlar yaratmışdır. Bütün sistemin normativ təməlini isə beynəlxalq insan hüquqları hüququ təşkil edir; bu hüquq sahəsi digər spesifik rejimlərdən fərqli olaraq universal xarakter daşıyır və dövlətlərin riayət etməli olduğu öhdəlikləri müəyyən edir.

Digər hüquq sahələri müəyyən qruplara və ya situasiyalara tətbiq oluna bildiyi halda, beynəlxalq insan hüquqları hüququ bütün insanlara, hər zaman şamil olunur. Onun əsas sənədləri olan 1948-ci il İnsan Hüquqları Ümumi Bəyannaməsi və ona hüquqi

qüvvə verən 1966-cı il iki beynəlxalq pakt hərəkət azadlığı, işgəncədən azad olmaq hüququ və əsas xidmətlərə çıxışın insanın vətəndaşlığından deyil, insan olmasından irəli gələn hüquqlar olduğunu təsbit edir və bu səbəbdən bu hüquqlar prinsip etibarilə qəbul edən dövlətdəki statusundan asılı olmayaraq miqrantlara da şamil olunur.

Əhalinin hərəkətinin beynəlxalq hüququn ən inkişaf etmiş və sistemli sahəsi isə beynəlxalq qaçqın hüququdur; onun institusional tarixi XX əsrin fəlakətləri ilə birbaşa bağlıdır. Bu proses 1921-ci ildə Millətlər Liqası çərçivəsində başlamış, 1951-ci il Qaçqınların statusu haqqında Konvensiya isə əvvəlki beynəlxalq sənədləri birləşdirərək və genişləndirərək bu sahədə ən əhatəli hüquqi kodifikasiya kimi formalaşmışdır. 1951-ci il Konvensiyası qaçqını hüquqi baxımdan dəqiq şəkildə belə müəyyən edir [15]: "irqinə, dininə, milliyyətinə, müəyyən sosial qrupa mənsubiyyətinə və ya siyasi baxışlarına görə təqib olunmaq qorxusu əsaslı olan şəxs".

Konvensiya eyni zamanda iki fundamental hüquqi prinsipi təsbit edir. Birincisi, sığınacaq axtarma hüququdur: bu hüququ universal səviyyədə ilk dəfə təsbit edən sənəd 1948-ci il İnsan Hüquqları Ümumi Bəyannaməsi olmuşdur və xüsusilə onun 14-cü maddəsində hər kəsin təqibdən qaçaraq digər ölkələrdə sığınacaq axtarmaq və bundan istifadə etmək hüququ olduğu qeyd olunur; bu prinsip sonradan 1951-ci il Konvensiyası və onun 1967-ci il Protokolu ilə daha da genişləndirilmişdir. İkinci və daha praktiki baxımdan həlledici prinsip isə geri qaytarmama prinsipidir (non-refoulement): bu prinsipə görə, qaçqın həyatına və ya azadlığına ciddi təhlükə olan ölkəyə geri göndərilə bilməz və bu norma artıq beynəlxalq adət hüququnun tərkib hissəsinə çevrilərək, Konvensiyaya və ya Protokola qoşulub-qoşulmamasından asılı olmayaraq bütün dövlətlər üçün məcburi xarakter daşıyır [1].

1967-ci il Protokolu 1951-ci il Konvensiyasının ilkin olaraq Avropadakı müharibədən sonrakı köçkünlük şəraitinə uyğunlaşdırılmış zaman və coğrafi məhdudiyyətlərini aradan qaldırmaq baxımından həlledici rol oynamışdır. Regional sənədlər də qaçqın anlayışını daha da genişləndirmişdir; məsələn, 1969-cu il Afrika Birliyi Təşkilatının Qaçqın Problemləri üzrə Konvensiyası ümumiləşdirilmiş zorakılıq və xarici təcavüzdən qaçan şəxsləri də əhatə edir və fərdi deyil, qrup əsaslı yanaşma tətbiq edir, yəni silahlı münaqişədən qaçan şəxslər fərdi status müəyyənləşdirmə prosedurundan keçmədən prima facie əsasda qaçqın kimi tanınır [7]. Bu səbəbdən həmin Konvensiyanın qaçqın anlayışı çox vaxt 1951-ci il Konvensiyası ilə müqayisədə daha geniş hesab olunur. Buna baxmayaraq, sistem ciddi tətbiq problemləri ilə üzləşir: 1951-ci il Konvensiyası dövlətlərin bir şəxsin qaçqın olub-olmadığını necə müəyyən etməli olduğunu dəqiq şəkildə göstərmir və sığınacaq prosedurlarının və status müəyyənləşdirmə mexanizmlərinin qurulmasını dövlətlərin öz ixtiyarına buraxır; nəticədə isə müxtəlif dövlətlər öz resurslarına, milli təhlükəsizlik yanaşmalarına və məcburi miqrasiya təcrübələrinə uyğun fərqli sistemlər formalaşdırır və bu da ciddi uyğunsuzluqlara səbəb olur.

Mexaniki əhali hərəkətinin say baxımından ən geniş kateqoriyasını təşkil etsə də, əmək miqrasiyasının hüquqi tənzimlənməsi beynəlxalq səviyyədə qaçqın hüququ ilə müqayisədə xeyli zəif inkişaf etmişdir və göndərən və qəbul edən dövlətlərin maraqları arasında əsaslı asimmetriya ilə xarakterizə olunur. Beynəlxalq Əmək Təşkilatı 1940-cı illərdən etibarən miqrant işçilərin əmək şəraitini tənzimləyən geniş konvensiyalar sistemi formalaşdırmışdır; bunlar arasında xüsusilə 1949-cu il "Məşğulluq üçün miqrasiya haqqında" 97 saylı Konvensiya və 1975-ci il "Sui-istifadə şəraitində miqrasiya haqqında" 143 saylı Konvensiya önə çıxır ki, sonuncu müharibədən sonrakı dövrdə qeyri-qanuni əmək miqrasiyasının artan probleminə cavab olaraq qəbul edilmişdir [4] [5]. Miqrant işçilərin hüquqlarını hərtərəfli şəkildə qorumağa yönəlmiş ən iddialı beynəlxalq sənəd isə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş 1990-cı il "Bütün miqrant işçilərin və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında" Beynəlxalq Konvensiyadır [13]. Bu Konvensiya qeyd edir ki, miqrant işçilər və onların ailə üzvləri çox vaxt həssas vəziyyətdə olurlar; bunun səbəblərindən biri onların mənşə ölkəsindən uzaqda olmaları, digəri isə işlədikləri ölkədə qarşılaşdıqları çətinliklərdir. Konvensiya həm sənədləşdirilmiş, həm də sənədsiz miqrantlara hüquqi tanınma, istismardan qorunma və ailə birliyinin təmin olunması kimi geniş hüquqlar paketi təqdim etməyi hədəfləyir; 2003-cü ildə qüvvəyə minmişdir, lakin onun ratifikasiya dinamikası beynəlxalq miqrasiya hüququnun əsas struktur gərginliyini açıq şəkildə göstərir: sənəd əsasən miqrant göndərən ölkələr tərəfindən ratifikasiya olunmuş, lakin Qlobal Şimalın əsas qəbul edən ölkələri tərəfindən qəbul edilməmişdir; bu dövlətlər belə bir sənədi ratifikasiya etməyin onların daxili miqrasiya nəzarəti rejimləri ilə ziddiyyət təşkil edəcəyini əsas gətirmişlər. Konvensiya müəyyən edir ki, hər bir miqrant işçi və onun ailə üzvləri hüquq qarşısında şəxs kimi tanınmaq hüququna malikdir və iştirakçı dövlətlər ərazilərində qeyri-qanuni vəziyyətdə olan miqrantların bu vəziyyətinin davam etməməsi

üçün müvafiq tədbirlər görməlidirlər. Bu ratifikasiya boşluğu beynəlxalq əmək miqrasiyası hüququnun əsas struktur uğursuzluğu kimi qiymətləndirilir və dünya üzrə əsas qəbul edən ölkələrdə miqrant işçilərin real vəziyyətinə beynəlxalq hüququn nə dərəcədə təsir edə bilməsi ilə bağlı geniş akademik mübahisələrə səbəb olmuşdur.

Əhalinin hərəkətinin beynəlxalq hüquqi tənzimlənməsinin ən son mərhələsi isə məcburi hüquqi müqavilələrdən çox, çoxtərəfli "yumşaq hüquq" idarəetmə çərçivələrinə keçidlə xarakterizə olunur; bu dəyişiklik həm məcburi beynəlxalq öhdəliklərin siyasi məhdudiyyətlərini, həm də XXI əsrdə miqrasiyanın əvvəlki dövrlər üçün nəzərdə tutulmuş hüquqi alətlərin hüdudlarını aşdığını göstərir. Bu istiqamətdə əsas dönüş nöqtəsi 2018-ci ildə Mərakeşdə keçirilmiş hökumətlərarası konfransda qəbul edilən "Təhlükəsiz, nizamlı və qanuni miqrasiya üzrə Qlobal Pakt" olmuşdur [8]. Bu pakt BMT-nin himayəsi altında hazırlanmış və beynəlxalq miqrasiyanın bütün aspektlərini kompleks şəkildə əhatə edən ilk hökumətlərarası razılaşma kimi çıxış edir və beynəlxalq insan hüquqları hüququna əsaslanaraq dövlətlərin bütün miqrantların hüquqlarına hörmət etmək, onları qorumaq və təmin etmək öhdəliyini bir daha təsdiqləyir. Paktın 23 məqsədi məlumatların toplanmasından hüquqi identifikasiyaya, sərhəd idarəçiliyindən insan alverinə qarşı mübarizəyə, miqrantların saxlanmasına alternativlərdən əsas xidmətlərə çıxışa qədər geniş sahələri əhatə edir.

Lakin sənədin əsas məhdudiyyəti onun öz mətnində açıq şəkildə ifadə olunmuşdur: bu, hüquqi cəhətdən məcburi olmayan, əməkdaşlığa əsaslanan çərçivədir və dövlətlərin suverenliyini qoruyur; bu səbəbdən o, icrası məcburi olan öhdəliklər yaratmır və milli miqrasiya qanunvericiliyini dəyişdirmək gücünə malik deyil. BMT Baş Assambleyasının prezidenti Miroslav Layçak bu razılaşmanı tarixi hadisə kimi qiymətləndirərək vurğulamışdır ki, o, nə miqrasiyanı təşviq edir, nə də onu dayandırmağı hədəfləyir, hüquqi baxımdan məcburi deyil, dövlətlərə göstəriş vermir və onların suverenliyinə tam hörmət edir [6]. ABŞ, Avstraliya, Macarıstan və bir sıra digər Mərkəzi və Şərqi Avropa ölkələri də daxil olmaqla bir çox dövlət bu sənədi qəbul etməkdən imtina etmiş, zamanla onun beynəlxalq adət hüququna çevrilə biləcək normativ baza yarada biləcəyinə dair narahatlıqlarını açıq şəkildə ifadə etmişlər.

Digər tərəfdən, tənqidçilər qeyd edirlər ki, bu Paktın qəbul edilməsi miqrant hüquqlarının qorunması sahəsində məcburi beynəlxalq hüquqdan "yumşaq hüquq"a doğru qəti keçidi göstərir və bu çərçivələr beynəlxalq insan hüquqları sisteminin miqrantların hüquqlarını effektiv şəkildə qorumaqda uğursuzluğunu etiraf edir. Eyni vaxtda qəbul edilmiş Qaçqınlar üzrə Qlobal Pakt da oxşar şəkildə hüquqi öhdəliklərdən çox siyasi öhdəliklər üzərində qurulmuşdur. Bu iki sənəd beynəlxalq miqrasiya hüququnun kulminasiyası kimi deyil, sahənin əsas ziddiyyətinin institusional etirafı kimi başa düşülməlidir: dövlətlərin sərhədlərinə nəzarət və əhalisini idarə etmək hüququ onların özlərinin qəbul etdiyi insan hüquqları öhdəlikləri ilə toqquşur və bu ziddiyyəti bütün dövlətlərin qəbul edəcəyi şəkildə həll edən məcburi beynəlxalq hüquqi mexanizm hələ formalaşmamışdır.

## Demoqrafik siyasət sahəsində beynəlxalq hüquq

Beynəlxalq hüquq ilə demoqrafik siyasət arasındakı münasibət struktur baxımından qeyri-müəyyəndir, çünki demoqrafik davranış eyni anda bir-birinə zidd istiqamətlərdə hərəkət edən dövlət suverenliyi, fərdi insan hüquqları və transmilli normativ öhdəliklərin kəsişmə nöqtəsində yerləşir. XX əsrin böyük hissəsi ərzində demoqrafik siyasət demək olar ki, tamamilə daxili məsələ kimi qəbul edilirdi; bu, dövlətin ərazi və sosial təşkilatlanma üzərində suverenliyinin ifadəsi sayılırdı və beynəlxalq hüququn bu sahəyə birbaşa təsiri minimal idi. Lakin əsrin ikinci yarısında insan hüquqları çərçivəsinin reproduktiv həyata qədər genişlənməsi ilə bu vəziyyət köklü şəkildə dəyişdi və demoqrafik məqsədlərlə fərdi azadlıqlar arasındakı əlaqə beynəlxalq idarəetmənin əsas mövzularından birinə çevrildi.

Universal səviyyədə bu dönüş nöqtəsi 1948-ci ildə qəbul olunmuş İnsan Hüquqları Ümumi Bəyannaməsi ilə baş verdi; sənədin 16-cı maddəsi ailə qurmaq hüququnu tanıyır, 25-ci maddəsi isə tibbi xidmət də daxil olmaqla layiqli həyat səviyyəsinə malik olmaq hüququnu təsbit edirdi. Bu müddəalar sonradan reproduktiv hüquqların ayrıca beynəlxalq hüquqi kateqoriya kimi formalaşmasının əsasını təşkil etdi. 1966-cı ildə qəbul olunmuş iki əsas pakt olan Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt isə bu hüquqlara məcburi hüquqi qüvvə verdi; xüsusilə ikinci sənədin 12-ci maddəsi mümkün olan ən yüksək sağlamlıq səviyyəsinə çatmaq hüququnu təsbit edir və bu müddəa müqavilə nəzarət orqanları tərəfindən getdikcə daha çox reproduktiv sağlamlığı da əhatə edən şəkildə şərh olunur [10] [11].

1979-cu ildə qəbul olunmuş və bu gün 189 dövlət tərəfindən ratifikasiya edilmiş Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya reproduktiv hüquqları birbaşa və sis-

temli şəkildə tənzimləyən ilk beynəlxalq sənəd olmuşdur; bu Konvensiya dövlətlərdən qadınların ailə planlaşdırılması xidmətlərinə bərabər çıxışını təmin etməyi, hamiləlik və doğuşla bağlı səhiyyə sahəsində ayrı-seçkiliyi qadağan etməyi tələb edir və onun nəzarət komitəsinin şərhləri vasitəsilə ayrı-seçkiliyin qadağan edilməsi prinsipi reproduktiv qərarvermənin demək olar ki, bütün sahələrini əhatə edəcək şəkildə genişləndirilmişdir [12]. Bu çərçivədə tanınan hüquqlara yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüquqları, səhiyyə xidmətlərinə və məlumatlara çıxış hüququ, səhiyyə resurslarının bölüşdürülməsində ayrı-seçkiliyə məruz qalmamaq hüququ və xüsusilə mühüm olan cinsi və reproduktiv qərarların qəbulunda muxtariyyət və məxfilik hüquqları, həmçinin səhiyyə xidmətləri ilə bağlı məlumatlı razılıq və məxfilik hüquqları daxildir.

Demoqrafik siyasət üzrə ayrıca beynəlxalq normativ çərçivənin formalaşmasında həlledici mərhələ 1994-cü ildə Qahirədə keçirilmiş Əhali və İnkişaf üzrə Beynəlxalq Konfrans olmuşdur; bu konfrans 179 hökumət tərəfindən qəbul edilmiş Fəaliyyət Proqramını ortaya qoyaraq müzakirələrin istiqamətini əsaslı şəkildə dəyişdirmişdir [9]. Qahirə konfransından əvvəl beynəlxalq əhali siyasəti əsasən demoqrafik narahatlıqlarla müəyyən olunurdu və tətbiq olunan alətlər çox vaxt fərdlərin reproduktiv davranışını dövlətlərin ümumi göstəricilərə çatmaq məqsədilə idarə etdiyi dəyişən kimi qiymətləndirirdi. Bu konfrans insanın reproduktiv fəaliyyəti və sağlamlığına yanaşmada yeni paradiqmanın qəbulunu ifadə etdi. İlk dəfə olaraq diqqət açıq şəkildə fərdlərin ehtiyaclarına və qadınların gücləndirilməsinə yönəldi; qadınların reproduktiv qabiliyyəti əhali nəzarətinin obyekti olmaqdan çıxaraq onların şəxsi muxtariyyətini həyata keçirməsi məsələsinə çevrildi. Konfransın Fəaliyyət Proqramı reproduktiv hüquqların beynəlxalq səviyyədə qəbul olunmuş tərifini kodlaşdırdı: bu hüquqlar bütün fərdlərin və cütlüklərin övladlarının sayını, aralarındakı məsafəni və doğum zamanını sərbəst və məsuliyyətli şəkildə müəyyən etmək, bunun üçün zəruri məlumat və vasitələrə sahib olmaq, eləcə də mümkün olan ən yüksək cinsi və reproduktiv sağlamlıq səviyyəsinə nail olmaq hüququna əsaslanır; eyni zamanda reproduktiv qərarların ayrı-seçkilik, məcburiyyət və zorakılıqdan azad şəkildə qəbul edilməsi də bu hüquqların tərkib hissəsidir. Xüsusilə vurğulanır ki, dövlətlərin fərdlərin və ailələrin uşaq sahibi olub-olmaması ilə bağlı davranışlarını təşviq və ya məhdudlaşdırma vasitəsilə yönəltməyə çalışan proqramları həm səmərəsiz, həm də əks təsirli olmuşdur, kvota və hədəflərə əsaslanan demoqrafik siyasət insan hüquqları çərçivəsi ilə uzlaşmır.

Fəaliyyət Proqramı hüquqi baxımdan məcburi sənəd olmasa da, onun normativ təsiri olduqca böyük olmuşdur: 1995-ci ildən etibarən BMT-nin müqavilə nəzarət orqanları reproduktiv hüquqların beynəlxalq insan hüquqları müqavilələrinə əsaslandığını getdikcə daha açıq şəkildə qəbul etmiş və Argentina, Boliviya, Braziliya, Kolumbiya və Nepal kimi ölkələrdə məhkəmələr bu standartları birbaşa tətbiq edərək abort qanunvericiliyinin liberallaşdırılması və qadınların təhlükəsiz abort xidmətlərinə çıxışının genişləndirilməsi istiqamətində mühüm qərarlar qəbul etmişdir; bu isə insan hüquqları çərçivəsinin qadınların reproduktiv azadlıqlarının genişləndirilməsində real təsir gücünü nümayiş etdirir.

Beynəlxalq hüquqi çərçivə ən birbaşa şəkildə məcburi demoqrafik siyasətə (yəni həm antinatalist, həm də pronatalist yönümlü tədbirlərə) təsir göstərir və bu sahədə qoyulan qadağalar mövcud normativ sistemin ən aydın formalaşmış qaydaları sırasındadır. Ən sərt beynəlxalq qınamaya səbəb olan təcrübə məcburi antinatalizm olmuşdur: zorla sterilizasiya kimi siyasət və praktikalar, keçmişdə geniş yayılmış və bu gün də müəyyən hallarda davam edən tədbirlər, çoxsaylı insan hüquqlarını pozur və qeyri-bərabər şəkildə həssas qruplara təsir göstərir. Hindistanda həyata keçirilmiş kütləvi sterilizasiya kampaniyaları, Çində bir uşaq siyasətinin cərimələr, işdən çıxarılma, məcburi abort və sterilizasiya vasitəsilə tətbiqi, eləcə də 1960-1980-ci illərdə inkişaf etməkdə olan ölkələrdə aparılan oxşar proqramlar formalaşmaqda olan reproduktiv hüquqlar çərçivəsinin sistemli şəkildə pozulması kimi qiymətləndirilir [3] [2].

Müasir beynəlxalq hüquqa görə, zorla və ya məcburiyyət yolu ilə sterilizasiya İşgəncələrə qarşı Konvensiya çərçivəsində işgəncə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar kimi tanınır və sistemli şəkildə tətbiq olunduqda insanlığa qarşı cinayət kimi də qiymətləndirilə bilər. Bununla belə, məcburi antinatalizmin qadağan edilməsi dövlətlərin məcburi pronatalist siyasət yürütməsinə avtomatik şəkildə icazə verilməsi anlamına gəlmir. Belarus, Yaponiya, Koreya Respublikası, Macarıstan, Türkiyə, Polşa və Rusiya kimi ölkələrdə qəbul edilmiş pronatalist siyasət dar çərçivəli müdaxilələr vasitəsilə qadınları daha çox uşaq sahibi olmağa təşviq etməyə və ya təzyiq göstərməyə yönəlmişdir; bu siyasət çox vaxt doğum səviyyəsinin artırılması missiyasını qadınların uşaq doğmaq vəzifəsi kimi təqdim edən konservativ ailə dəyərlərinin təşviqi ilə birləşdirir, ənənəvi gender rollarını yenidən möhkəmləndirir və gender bərabərliyi, eləcə də cinsi və gender azlıqların

hüquqları sahəsində əldə edilmiş irəliləyişləri geriyə aparır.

Bütün bunlar kontrasepsiya və aborta çıxışı məhdudlaşdırmaqla demoqrafik mühəndislik aləti kimi istifadə edildikdə, Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyanı, Qahirə konfransının çərçivəsini və BMT müqavilə orqanlarının şərhlərində əks olunduğu kimi sağlamlıq hüququnu pozur. Yaxınlaşan "əhalı böhranı" qorxusu tez-tez kontrasepsiya və aborta çıxışın məhdudlaşdırılması, evli olmayan və uşaqsız şəxslər kimi müəyyən qrupların damğalanması və kənarlaşdırılması, eləcə də qadınların muxtariyyətinə və gender bərabərliyinə zidd olan konservativ ailə modelinin təşviqi ilə nəticələnir; bu isə fərdlərin fiziki azadlıqlarını məhdudlaşdıran məcburi pronatalist yanaşmaların formalaşmasına gətirib çıxarır.

Beynəlxalq demoqrafik hüquqda davamlı struktur gərginliklərdən biri reproduktiv hüquqlar çərçivəsi ilə dövlətlərin öz inkişaf məqsədlərinə uyğun demoqrafik siyasət formalaşdırmaq suveren hüququ arasında yaranan ziddiyyətdir. Qahirə konfransının Fəaliyyət Proqramı belə bu gərginliyi açıq şəkildə qəbul edərək onun həyata keçirilməsinin hər bir ölkənin suveren hüququ olduğunu qeyd etmişdir. Dövlətlər təhsil, məlumatlandırma kampaniyaları, uşaq doğumuna sosial stimullar və miqrasiya siyasəti vasitəsilə demoqrafik məqsədlərini həyata keçirmək üçün geniş hüquqi imkanlara malikdirlər, lakin bu tədbirlər məcburiyyətə, ayrı-seçkiliyə və ya əsas səhiyyə xidmətlərinə çıxışın məhdudlaşdırılmasına çevrilməməlidir. Buna baxmayaraq, qanuni siyasətlə insan hüquqlarının pozulması arasındakı sərhəd tez-tez mübahisə predmetinə çevrilir. Xüsusilə 1994-cü ildə Qahirə konfransından sonra getdikcə daha çox qəbul olunmuşdur ki, əhali ilə bağlı məqsədlərə ümumi demoqrafik göstəricilərə deyil, fərdlərin və ailələrin ehtiyaclarına üstünlük verildikdə daha sürətli nail olmaq mümkündür; doğum səviyyəsinin azalması və bir çox ölkədə əhalinin qocalmasının sürətlənməsi ilə müzakirələr getdikcə daha çox doğum səviyyəsinin artırılması və əhali artımının təşviqi üzərində cəmləşmişdir.

Bununla yanaşı, əhalinin qocalmasına beynəlxalq hüquqi çərçivənin reaksiyası kifayət qədər inkişaf etməmişdir. Qocalan əhali, pensiya sistemlərinin dayanıqlılığı və nəsillərarası ədalət məsələlərini tənzimləyən məcburi beynəlxalq sənəd mövcud deyil, baxmayaraq ki, 2002-ci ildə qəbul olunmuş Madrid Beynəlxalq Fəaliyyət Planı bu sahədə qeyri-məcburi öhdəliklər müəyyən etmişdir [14]. 2015-ci ildə qəbul edilmiş Davamlı İnkişaf Məqsədləri demoqrafik məsələləri daha geniş inkişaf gündəliyinə inteqrasiya etmiş, üçüncü məqsəd universal səhiyyə təminatını, beşinci məqsəd isə gender bərabərliyi və reproduktiv hüquqları hədəfləmişdir; lakin Qahirə Fəaliyyət Proqramında olduğu kimi, bunlar hüquqi cəhətdən məcburi deyil, siyasi öhdəliklərdir. Nəticə etibarilə, demoqrafik siyasət sahəsində beynəlxalq hüquqi normaların ümumi mənzərəsi belədir: fərdi reproduktiv hüquqlar, məcburiyyətin qadağan olunması və ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində ciddi normativ inkişaf müşahidə olunur, lakin icra mexanizmlərinin zəifliyi, əhalinin qocalması və əvəzləyici səviyyədən aşağı doğum kimi yeni çağırışların yetərincə tənzimlənməməsi və dövlət suverenliyinə geniş yer verilməsi səbəbindən, formal olaraq beynəlxalq hüquqa uyğun görünən, lakin praktikada reproduktiv azadlıqları məhdudlaşdıra bilən siyasət üçün geniş imkan sahəsi qalmaqdadır.

## Nəticə

Beynəlxalq hüquq əhalinin hərəkətini və demoqrafik siyasəti tənzimləmək üçün geniş normativ baza formalaşdırmış olsa da, bu sistem vahid və tam inteqrasiya olunmuş mexanizm kimi fəaliyyət göstərmir. Miqrasiya hüququ müxtəlif hüquq sahələrinin parçalanmış strukturu üzərində qurulduğundan, tətbiq səviyyəsində ciddi uyğunsuzluqlar yaranır. Xüsusilə qaçqın hüququnun daha inkişaf etmiş olması fonunda əmək miqrasiyasının zəif tənzimlənməsi və əsas qəbul edən dövlətlərin beynəlxalq öhdəliklərdən yayınması bu sahədə struktur asimmetriyanı daha da dərinləşdirir. Bununla yanaşı, son dövrdə "yumşaq hüquq" mexanizmlərinə keçid beynəlxalq hüququn məcburedici gücünün zəiflədiyini və dövlətlərin suverenlik prioritetlərinin üstünlük təşkil etdiyini göstərir.

Demoqrafik siyasət sahəsində isə beynəlxalq hüquq daha çox fərdi reproduktiv hüquqların qorunmasına yönəlsə də, bu hüquqların praktiki təminatı ciddi problemlərlə üzləşir. Məcburi antinatalist siyasətin qadağan olunması aydın normativ çərçivə yaratsa da, pronatalist siyasət çox vaxt dolayı məcburiyyət və sosial təzyiq mexanizmləri vasitəsilə həyata keçirilir və bu da hüquqla praktika arasında fərq yaradır. Dövlətlərin demoqrafik məqsədlər naminə həyata keçirdiyi siyasətlə insan hüquqları arasında sərhədin qeyri-müəyyən olması, həmçinin qocalma və aşağı doğum səviyyəsi kimi yeni çağırışların yetərincə hüquqi tənzimlənməməsi bu sahədə normativ boşluqların davam etdiyini göstərir. Nəticə etibarilə, beynəlxalq hüquq müəyyən prinsiplər müəyyən etsə də, onların effektiv icrası hələ də dövlətlərin siyasi iradəsindən asılı qalır.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Allain, J. The jus cogens Nature of non-refoulement. International Journal of Refugee Law, 2001, 13(4), 533-558.*

*2. Connelly, M. Fatal misconception: The struggle to control world population. Belknap Press of Harvard University Press, 2008. 521 p.*

*3. Greenhalgh, S. Just one child: Science and policy in Deng's China (403 p.). University of California Press, 2008. 403 p.*

*4. International Labour Organization. 1949 Migration for employment convention (revised), 1949 (No. 97). https://www.ilo.org/dyn/normlex/en/f?p=NORMLEXPUB:12100:0::NO::P12100_ILO_CODE:C097*

*5. International Labour Organization. Migrant workers (supplementary provisions) convention, 1975 (No. 143). https://www.ilo.org/dyn/normlex/en/f?p=NORMLEXPUB:12100:0::NO::P12100_ILO_CODE:C143*

*6. Lajčák, M. (2018, December 19). Statement by the President of the United Nations General Assembly at the intergovernmental conference to adopt the global compact for safe, orderly and regular migration. United Nations General Assembly. https://www.un.org/pga/73/2018/12/19/statement-by-the-pga-at-the-high-level-meeting-on-the-global-compact-for-migration/*

*7. Organization of African Unity. 1969 Convention governing the specific aspects of refugee problems in Africa. United Nations Treaty Series, 1001, 45. URL: https://au.int/en/treaties/oau-convention-governing-specific-aspects-refugee-problems-africa*

*8. United Nations General Assembly. (2018). Global compact for safe, orderly and regular migration (A/RES/73/195). https://undocs.org/A/RES/73/195*

*9. United Nations Population Fund. (1994). Programme of action of the International Conference on Population and Development, Cairo, 5–13 September 1994 (UN Doc. A/CONF.171/13/Rev.1). https://www.unfpa.org/sites/default/files/event-pdf/PoA_en.pdf*

*10. United Nations. (1966). International covenant on civil and political rights. United Nations Treaty Series, 999, 171. https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/international-covenant-civil-and-political-rights*

*11. United Nations. (1966). International covenant on economic, social and cultural rights. United Nations Treaty Series, 993, 3. https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/international-covenant-economic-social-and-cultural-rights*

*12. United Nations. (1979). Convention on the elimination of all forms of discrimination against women. United Nations Treaty Series, 1249, 13. https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/convention-elimination-all-forms-discrimination-against-women*

*13. United Nations. (1990). International convention on the protection of the rights of all migrant workers and members of their families. United Nations Treaty Series, 2220, 3. https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/international-convention-protection-rights-all-migrant-workers*

*14. United Nations. (2002). Political declaration and Madrid international plan of action on ageing (A/CONF.197/9). Second World Assembly on Ageing. https://www.un.org/esa/socdev/documents/ageing/mipaa/political-declaration-en.pdf*

*15. United Nations. 1951 Convention relating to the status of refugees. United Nations Treaty Series, 189, 137. https://www.unhcr.org/4ec262df9.pdf*



**Ульвия Тураб Хагверди**

***Доцент кафедры Политологии и политического управления Академии Государственного Управления при Президенте Азербайджанской Республик, доктор философии по политическим наукам***


## РЕЗЮМЕ

**Международно- правовые основы естественного и механического движения населения**


В статье системно анализируются международно-правовые основы естественного и и механического движения населения. Исследование рассматривает взаимодействие различных отраслей миграционного права, включая международное право прав человека, право беженцев и международное трудовое право, а также выявляет структурную фрагментацию данной системы. Особое внимание уделяется механизмам, сформированным в рамках Конвенции о статусе беженцев 1951 года и Протокола 1967 года, а также проблемам применения Конвенции 1990 года о правах трудящихся-мигрантов. В статье также анализируется возрастающая роль инструментов «мягкого права», в частности Глобального пакта по миграции 2018 года, и их ограничения. В контексте демографической политики исследуется формирование репродуктивных прав в международном праве, включая влияние Каирской конференции 1994 года. Отдельно оцениваются последствия принудительных антинаталистских

и пронаталистских политик с точки зрения прав человека. Результаты показывают, что несмотря на наличие развитой нормативной базы, ее реализация существенно ограничена государственным суверенитетом и политическими интересами. Кроме того, выявляется недостаточная разработанность правовых механизмов, отвечающих современным демографическим вызовам.

**Ключевые слова:** *миграционное право, репродуктивные права, право беженцев, демографическая политика, международное право.*

**Ulviyya Turab Hagverdi**
***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Department of Political Science and Political Administration***
***Associate professor, Ph.D. in Political Science***

**РЕЗЮМЕ**

**International legal foundations of natural and mechanical movement of population**

The article provides a systematic analysis of the international legal foundations governing natural and mechanical population movement. It examines the interaction between key branches of migration law, including international human rights law, refugee law, and international labor law, highlighting the structural fragmentation of the existing legal framework. Particular attention is given to the legal mechanisms established under the 1951 Refugee Convention and the 1967 Protocol, as well as the implementation challenges of the 1990 Convention on the Rights of Migrant Workers. The study also explores the growing role of soft law instruments, especially the 2018 Global Compact for Migration, and evaluates their limitations. In the context of demographic policy, the article analyzes the evolution of reproductive rights within international law, with a focus on the impact of the 1994 Cairo Conference. It further assesses the human rights implications of coercive antinatalist and pronatalist policies. The findings indicate that although international law provides a comprehensive normative framework, its enforcement remains constrained by state sovereignty and political interests. Additionally, there is a notable lack of effective legal mechanisms addressing emerging demographic challenges such as population aging and declining fertility rates.

**Keywords:** *migration law, reproductive rights, refugee law, demographic policy, international law.*

*Rəyçi: Siyasi elmlər doktoru, professor Sevda Əliyeva*
*Məqalə redaksiyaya daxil olub: 03.04.2026*
*Çapa qəbul olunub: 27.04.2025*

*The date of the admission of the article to the editorial office: 03.04.2026*
*Accepted for publication: 27.04.2025*